Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №005 (180) * İyun 2018-ci il

# Qobustan rayonunda 15 İyun "Milli Qurtuluş günü"nə həsr olunmuş tədbir keçirildi

***Qobustan rayonunda 15 İyun ” Milli Qurtuluş günü”nə həsr olunmuş tədbir keçirildi. Rayon ictimaiyyətinin nümayəndələri Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin abidəsi önünə qızılgüllər, tər qərənfillər düzdülər.***





Sonra tədbir rayon Gənclər Mərkəzində davam etdirildi.İlk növbədə rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov cənabları çıxış edərək bütün Qobustanlıları əziz və müqəddəs bayram olan ”Milli Qurtuluş günü” münasibətilə səmimi-qəlbdən təbrik etdi, Ulu öndər Heydər Əliyevin xalqımızın tarixindəki müstəsna xidmətlərindən bəhs etdi. O,qeyd etdi ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əlirza oğlu Əliyevdir.

Bildiyiniz kimi, müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr olub. Tale elə gətirib ki, 1991-1993-cü illər, müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır.

Bütün bunlar isə həmin dövrlərdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsi ilə əlaqədar baş verirdi.

Belə bir məqamda isə yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatçılıq keçirən ziyalılar Ulu öndər Heydər Əliyevə müraciət etdilər. Ölkədə yaranan siyasi gərginliyin aradan qaldırılması üçün Heydər Əliyevin hakimiyyətə gəlməsinin vacibliyini bildirdilər.












Rəsmi hissə bitdikdən sonra tədbir Gənclər Mərkəzində rayon Mədəniyyət və Turizm şöbəsinin hazırladığı geniş konsert proqramı ilə davam etdirildi. Sənətçilərin çıxışları tədbir iştirakçıları tərəfindən yüksək səviyyədə qarşılandı.

***Qobustan qəzetinin baş redaktoru Ruslan Şahbazov***

## Fədakar yanğınsöndürənlər

***Bugün ki, müsahibim Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Qobustan rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi Rəfiyev Mayis Yusif oğludur.***



Səh. 3

## Qobustan Bölgə Təcrübə Stansiyasında "Səmərəli mineral gübrə normalarının payızlıq buğdanın məhsuldarlığına və keyfiyyətinin artırılmasına təsiri" mövzusunda təlim seminarı keçirildi

*Qobustan rayonunda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm İnformasiya Məsləhət Mərkəzi və Qobustan Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitunun Qobustan Bölgə Təcrübə Stansiyasında ”Səmərəli mineral gübrə normalarının payızlıq buğdanın məhsuldarlığına və keyfiyyətinin artırılmasına təsiri” mövzusunda təlim seminarı keçirildi.*



Səh. 7

## Azərbaycanda Silahlı Qüvvələr Gününün 100 illiyi

***Bu gün biz Azərbaycan Slahlı Qüvvələr Gününün 100 illiyini qeyd edirik. 1918-ci ilin 28 may tarixində Azərbaycan Demokratik Respublikası elan olunanda Azərbaycanda milli ordu yox idi.***



Səh. 3

# Qobustan şəhərində RİH başçısı cənab Adil Məmmədov şəhər sakinləri ilə görüş keçirdi






***Qobustan şəhərində RİH başçısı cənab Adil Məmmədov şəhər sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Qobustan şəhər İƏD üzrə nümayəndə Məlikağa Əhədov hesabat verərək il ərzində şəhərdə görülən işlər barədə danişdı. O, şəhərdə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki , əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və arıçılıqdır.***

Sonra şəhər əhalisindən Ağaquliyev Təhmiraz Dadaş oğlu və Güləliyev Ağazaman Musaxan oğlu çıxış edərək Qobustan şəhərində aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə şəhər sakinləri adından öz təşəkkürlərini bildirdilər. Şəhər əhalisinin rahatlığı üçün yeni bir şadlıq sarayının tikilməsini və yeni salınan küçədə yardımçı yolunun təmir olunmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov Qobustan şəhərində kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərdə aqrotexniki qaydalara əməl edildiyini və ziyanvericilərə qarşı aparılan mübarizənin qənaətbəxş hesab edildiyini qeyd etdi. Sonra qeyd etdi ki, biçin vaxtı yaxınlaşır, ona görə də daha da diqqətli olub taxıl sahələrimizi qorumalıyıq. Bu il rayonumuzda yeni xəstəxananın, Bədəlli - Poladlı kənd yolunun, Qobustan şəhər 3 saylı tam orta məktəbin və xalça emalatxanasının açılışları olacaq. Rayonumuza göstərilən bu diqqət və qayğıya görə cənab Prezdentimizə öz təşəkkürümüzü bildiririk.

Rayonmuzda hər həftənin şənbə-bazar günləri yarmarka keçirilir. Qobustan şəhər əhalisini də daha aktiv iştirak etməyə çağırdı.

Vətəndaşlara bildirlidi ki, kənd sakinlərinin qeyd etdikləri problemlərin də yaxın zamanlarda həll olunması üçün aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırılacaqdır.

***Qobustan qəzetinin baş redaktoru Ruslan Şahbazov***

# Qobustan rayonunda 23 iyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibəti ilə tədbir və mükafatlandırma oldu







***Qobustan rayonunda 23 iyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibəti ilə tədbir və mükafatlandırma oldu.***

Qobustan rayonunda 23 iyun "Dövlət Qulluqçuları" peşə bayramı gününə həsr olunmuş tədbir keçirildi. Rayonda çalışan dövlət qulluqçuları Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin abidəsi önünə qızilgüllər, tər qərənfillər düzdülər.

Qobustan Rayon icra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov dövlət qulluqçularını təbrik etdi. Onlara gələcəkdə çətin və şərəfli işlərində uğurlar arzuladı. Rayon İcra Hakimiyyətinin başçısı çıxışında qeyd etdi ki, hər bir dövlət qulluqçusu xalqın xidmətçisidir. 23 iyun ölkəmizdə Dövlət Qulluqçularının peşə bayramı kimi qeyd olunur. Dövlət Qulluqçularının peşə bayramı Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib. Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu günü elan edilməsi nəzərə alınaraq bu tarixin Azərbaycanda dövlət qulluqçularının peşə bayramı günü elan edilməsi qərara alınıb.

Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 1995-ci ildə qəbul olunan Konstitusiya ölkəmizdə dövlət quruluşu və idarəçilik prinsiplərini təsbit edir. Ölkəmizdə Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də qəbul edilən "Dövlət qulluğu haqqında" Qanundur. Bu Qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib.

İndi ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirlik, komitə və digər qurumlarda 30 minə yaxın dövlət qulluqçusu çalışır. 10 mindən çox şəxs isə dövlət qulluqçusu kimi pensiya alır. Onuda qeyd edək ki, Qobustan rayonunda 145 nəfər dövlət qulluqçusu var. Onlardan 117 nəfəri kişi, 28 nəfəri isə qadın dövlət qulluqçularıdır.

Qobustan rayon İcra Hakimiyyətinin başçısı dövlət qulluğunda fərqlənən dövlət qulluqçularına fəxri fərmanlar təqdim etdi. Sonda tədbir konsert proqramı ilə davam etdi.

***Qobustan qəzetinin baş redaktoru Ruslan Şahbazov***

# Azərbaycanda Silahlı Qüvvələr Gününün 100 illiyi

***Bu gün biz Azərbaycan Silahlı Qüvvələr Gününün 100 illiyini qeyd edirik. 1918-ci ilin 28 may tarixində Azərbaycan Demokratik Respublikası elan olunanda Azərbaycanda milli ordu yox idi. Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yarandı.***

Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Az bir vaxt ərzində Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu.





Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixində imzaladığı fərmanla 1918-ci il 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Ümummilli lider Heydər Əliyev bu fərmanı ilə tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atdı.

Hazırda Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü və hazırlıqlı ordu hesab olunur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışı zamanı bildirmişdir: "Mən həmişə deyirəm ki, güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan Ordusu nəinki bölgədə, dünyada həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizatına görə güclü ordular sırasındadır. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir!"

Cari ilin aprel hadisələri Azərbaycan Ordusunun qüdrətini bir daha sübut etdi. 2016-cı ilin 2 aprel tarixində cəbhəyanı ərazilərdə məskunlaşan mülki əhali hədəfə alınaraq Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin qoşunların təmas xəttində mövqeləri ağır silahlardan intensiv atəşə məruz qaldı. Ermənistan təxribatlarının dayandırılması və təcavüzkar fəaliyyətinin qarşısının alınması məqsədilə Azərbaycan ordusu lazımi addımlar atdı. Həmin hadisələr zamanı erməni silahlı birləşmələrinin təxribatının qarşısını layiqincə alan Azərbaycan Silahlı Qüvvələri uzun illər düşmən tapdağı altında olan ərazilərimizin bir hissəsini işğaldan azad etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bildirdiyi kimi, aprel döyüşləri tarixdə Azərbaycanın böyük hərbi qələbəsi kimi qalacaqdır, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var.

Bu gün biz həm Silahlı Qüvvələr Gününün 100 illiyini,həm də 6 noyabr 2007-ci il tarixdə Füzuli rayonu Horadiz yaxınlığında xidməti vəzifə borcunu yerinə yetirərkən şəhid olmuş zabit Babayev Valeh Dadaş oğlunun xatirəsinə inşa olunmuş bulağın açılışını qeyd edirik. Babayev Valeh 14.07.1977-ci ildə Şamaxı rayonu Nərimankənd kəndində anadan olmuşdur.1983-1994-cü illərdə həmin kənddə orta təhsil almışdır.1994-1998-ci illərdə bakı Ali Ümumqoşun Komandirlər məktəbində ali təhsil almış,leytenant hərbi rütbəsi verilməklə xidmət üçün ön cəbhəyə yollanmışdır.6 noyabr 2007-ci ildə Füzuli rayonu Horadiz yaxınlığında şəhid olmuşdur.





Azərbaycan Respublikası Prezidenti adından "Qüsursuz xidmətə görə"3-cü dərəcəli medalı ilə təltif olunmuşdur.

Şəhid Babayev Valeh Dadaş oğlu evil idi. İki övladı var. Qızı Aydanın 16, oğlu Səidin 15 yaşı var.

Azərbaycan Rusiya ilə 2020-ci ilədək son silah və hərbi texnika sifarişi üçün 700000 USD-lik müqavilə imzalayıb, bununla da Qafqazda ən güclü ölkə olduğunu bir daha sübut edib

Ermənilər isə haqlı olaraq bizdəki döyüş ruhundan vəlvələyə düşüb (xüsusən 26 iyun hərbi paradından sonra!)

# Fədakar yanğınsöndürənlər

***Bugün ki, müsahibim Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Qobustan rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi Rəfiyev Mayis Yusif oğludur.***



***-Salam Mais müəllim. İlk öncə Qobustan rayon Dövlət Yanğından Mühafizə hissəsi haqqında məlumat verməyinizi xahiş edirəm.***

-Bildirmək istəyirəm ki, hal-hazırda Qobustan rayon Dövlət Yanğından Mühafizə hissəsinin dörd yanğınsöndürən, bir xilasetmə avtomobili əlli beş şəxsi heyyəti var və hər an baş verəcək hadisələrə hazır vəziyyətdədir.

***-Bu mövsum ərzində baş vermiş hadisələrdən yaddaqalanı haqqında məlumat verəsiniz.***

- 27.03.2018-ci iltarixində Qobustan şəhərinin "Yeni masssiv" adlanan ərazisində Hümbətov Süleymana məxsus 2 mərtəbəli evin mansarında baş vermiş yanğın haqqında məlumat daxil olmuşdu. Dərhal həyacan siqnalı ilə şəxsi heyyətimiz 2 yanğın söndürən avtomobil və 10 nəfər yanğınsöndürən hadisə yerinə cəlb olunmuş,yangının qarşısı dərhal alınmış ətrafa ziyan vurmadan, digər evlərə alovun keçməsini qarşısı vaxtında alınmış, təhlükəsizlik tədbirləri görülmüşdür.

***-Hörmətli Mais müəllim havaların isti keçməsi hamıya məlumdur. Belə bir vaxtda hər an yanğın hadisəsi baş verməsi labüddür. Bu haqqda marifləndirici işlər görülübmü?***

-Belə ki, havaların isti keçməsini nəzərə alaraq bütün əhaliyə, sahibkarlara, fermerlərə təhlükəsizlik tədbirlərinin görülməsi, verilən tapşırıqlara vaxtında riayət etmələri haqqında məlumat vermişik və əməl etmələri tələb olunmuşdur.



***Məlumdur ku, hal-hazırda ölkəmizin hər bir yerində olduğu kimi rayonumuzda da taxıl biçini başlamışdır.Rayon əhalisi bu mövsüm ərzində illik ruzisini tədarük etməkdədir. Bu zaman ən cox məsuliyyət siz Yanğınsöndürənlərin üzərinə düşür. Bu haqqda nə deyə bilərsiz?***

-Bəli, belə halların baş verməsi hər gözlənilir və tərəfimizdən bu çağırışlar hər an hazırıq. 28.06.2018-ci il tarixində Qobustan rayon Çalov kəndindən Mühafizə hissəmizə məlumat daxil oldu ki, kənd sakinlərinə məxsus biçilməmiş taxıl sahəsi ehtiyatsızlıq üzündən yanğın baş vermişdir. Dərhal həyəcan siqnalı ilə 3 yanğınsöndürən 15 şəxsi heyyət hadisə yerinə cəlb olunmuş, rəis müavini Rəcəbov Rəfailin rəhbərliyi altında yanğın qısa müddət ərzində söndürülmüş, digər taxıl sahələrinə keçməsinin qarşçısı alınmış və heç bir təlafat baş verməmişdir.

***-Belə hadisələr tez-tez baş verir?***

- Biz belə hadisələrə vərdiş almışıq. Qeyd edim ki, 30.06.2018-ci il tarixdə Sədəf kəndində də belə bir hadisə ilə hissəmizə məlumat daxil olmuşdu. Belə ki, Sədəf bələdiyyəsinə məxsus biçilməmiş taxıl sahəsində yanğın baş vermişdi. Şəxsi heyyətimiz vaxtına hadisə yerinə çatmış, 3 ha taxıl sahəsində baş vermiş yanğın söndürülmüş, ətraf sahələrə yanğının keçməsinin qarşısı alınmışdır. Bir də onu diqqətinizə çatdırmaq istəyirəm ki, həmin kənd sakini Mirzəyev Zabil Vəli oğluna məxsus həyətyanı sahədə yanğın baş vermişdi. Həmin yanğının qarşısı tərəfimizdən alınmış, digər evlərə keçməsinin qarşısı alınmışdır. Xoşbəxtlikdən heç bir təlefat olmamışdır.



***- Əkilmiş taxıl zəmilərində baş vermiş yanğın digər yanğınlardan necə çətindirmi söndürmək?***

-Bəli, hər bir baş vermiş yanğının qarşısını almağın öz çətinlikləri var. Misal üçün deyim 04.07.2018-ci il tarixdə Poladlı kəndində baş vermiş kənd sakinlərinə məxsus biçilmiş və biçilməmiş taxıl sahəsində baş verən yanğının qarşısını



almaq üçün əraziyə tərəfimizdən 1 yanğınsöndürən , 5 nəfər şəxsi heyyət cəlb etmişdik. Sonra yanğının qarşısının alınmasında çətinlik olduğu üçün həmin əraziyə kömək üçün 1 yanğınsöndürən və 5 nəfər də göndərdik. Onu da qeyd edim ki, həmin hadisədə 2 ha biçilməmiş 4 ha biçilmiş taxil sahəsi yanmışdı. Tərəfimizdən görülən tədbirlər nəticəsində yanğının qaşısı vaxtında alınmışdır.

***-Sonuncu bir sualım. Qonşu rayonlarda belə bir hadisə zamanı olubmu ki, köməyə çağıralar?***

-Bəli, dəfələrlə olub. Bu yaxınlarda Şamaxı və Ağsu rayonlarında baş vermiş yanğınlar zamanı yanğınsöndürənlərimiz hadisə yerinə vaxtında çatmış və baş vermiş hadisənin aradan qaldırılmasında yaxından köməklik göstərmişlər.

Sonda Mais müəllim sizə müsahibə verdiyiniz üçün təşəkkür edirəm və işlərinizdə uğurlar arzulayıram. Baş vermiş hadisələrdə öz şücaətini göstərmiş şəxsi heyyətinizə rayon ictimaiyyəti adından cox sağ ol deyirik.

***Qobustan qəzetinin baş redaktoru Ruslan Şahbazov***

# Qobustan rayon Sündü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi



**Qobustan rayon Sündü kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Sündü kənd İƏD üzrə nümayəndə Fədai Balaqardaşov hesabat verərək il ərzində kənddə görülən işlər barədə danışdı.**

O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki , əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və arıçılıqdır.

Sonra kənd əhalisindən Niftalıyev Heybət Ağaşiraz oğlu, Alcanov İdris Xancan oğlu və Qaçayeva Hicranə Maxsud qızı çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Kənd əhalisinin rahatlığı üçün həyətlərə su çəkilməsini, yeni məktəb binasının tikilməsini və kənddə yerləşən bağçada 2-ci qrupun açılmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl etdiyini və ziyanvericilərə qarşı aparılan mübarizənin qənaətbəxş hesab edildiyini qeyd etdi. Sonra qeyd etdi ki, biçin vaxtı yaxınlaşır, ona görə də daha da diqqətli olub taxıl sahələrimizi qorumalıyıq. Rayonmuzda hər həftənin şənbə-bazar günləri yarmarka keçrilir. Sündü kənd əhalisini də daha aktiv iştirak etməyə çağırdı.

Vətəndaşlara bildirlidi ki, kənd sakinlərinin qeyd etdikləri problemlərin də yaxın zamanlarda həll olunması üçün aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

***Redaktor***













# Qobustan rayon Bədəlli kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi





***Qobustan rayon Bədəlli kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Bədəlli kənd İƏD üzrə nümayəndə Hamlet Ağayev hesabat verərək il ərzində kənddə görülən işlər barədə danışdı. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki , əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıqdır.***

Sonra kənd əhalisindən Seyidov İnkişaf Yusif oğlu, Qayıbov Zeynalxan Muğbir oğlu və Balayev Elton Bəhrəm oğlu çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Kənd əhalisinin rahatlığı üçün kəndin daxili yollarının təmir olunmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl etdiyini və ziyanvericilərə qarşı aparılan mübarizənin qənaətbəxş hesab edildiyini qeyd etdi. Sonra qeyd etdi ki, biçin vaxtıdır, ona görə də daha da diqqətli olub taxıl sahələrimizi qorumalıyıq. Rayonmuzda hər həftənin şənbə-bazar günləri yarmarka keçrilir. Bədəlli kənd əhalisini də daha aktiv iştirak etməyə çağırdı.

Vətəndaşlara bildirlidi ki, kənd sakinlərinin qeyd etdikləri problemlərin də yaxın zamanlarda həll olunması üçün aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

***Qobustan qəzetinin baş redaktoru Ruslan Şahbazov***









# Qobustan Bölgə Təcrübə Stansiyasında "Səmərəli mineral gübrə normalarının payızlıq buğdanın məhsuldarlığına və keyfiyyətinin artırılmasına təsiri" mövzusunda təlim seminarı keçirildi





**Qobustan rayonunda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm İnformasiya Məsləhət Mərkəzi və Qobustan Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitunun Qobustan Bölgə Təcrübə Stansiyasında "Səmərəli mineral gübrə normalarının payızlıq buğdanın məhsuldarlığına və keyfiyyətinin artırılmasına təsiri" mövzusunda təlim seminarı keçirildi.**

Tədbirdə Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov, Əkinçilik ET İnstitunun direktoru Cavanşir Təlai, Əkinçilik ET İnstitunun torpaq və bitki analizləri laboratoriyasının müdiri İmrəli Hacıməmmədov, Əkinçilik ET İnstitunun Davamlı əkinçilik və bitki diversifikasiyası şöbəsininn elmi işçisi Sevindik Dünyamalıyev, Əkinçilik ET İnstitunun Dənin keyfiyyəti laboratoriyasının müdiri Qətibə Həsənova, Əkinçilik ET İnstitunun Xəstəlik və Zərərvericilərə nəzarət laboratoriyasının elmi işçisi Etibar İbrahimov və Qobustan Bölgə Təcrübə Stansiyası müdiri Atabəy Cahangirov çıxış edərək "Payızlıq buğda əkinlərində yeni KAC-32 gübrəsinin tətbiqinin məhsuldarlığa və keyfiyyətə təsiri, "Nəmlikdən aslı olaraq qida maddələrinin mənimsənilməsi və düzgün gübrə normalarının müəyyən edilməsi", "Optimal gübrə normalarının payızlıq buğda bitkisinin məhsuldarlığına və onun çörək keyfiyyətinə təsiri" və "Buğda bitkisinin əsas xəstəliklərə və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılması haqqında fermerlərə məlumat verdilər.





Sonda təcrübə sahələrinə baxış keçirildi.

***İnformasiya təminatı və təhlili sektoru müdiri Niyal Xanaliyev***

# Qobustan idmançılarının uğurları!

***Son illər Qobustan rayonunda bədən tərbiyəsi və idman sahəsi sürətlə inkişaf etməkdədir. 2017-ci ildə beynəlxalq, respublika və zona yarışlarından 215 medal qazanan Qobustan idmançılarıcari ilin I yarımilliyini də yüksək nəticələrlə başa vurmuşlar.***

Gənclər və İdman idarəsinin nəzdində fəaliyyət göstərən İdman məktəbinin maddi-texniki bazasının gücləndirilməsi, mövcud idman bazalarından səmərəli istifadə və həyata keçirilən digər tədbirlər yeniyetmə və gənclər arasında idmanın kütləviliyini təmin etmişdir. Gənc idmançıların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Qobustanda perspektivli idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır.

2018-ci ilin I yarımilliyində Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə idmanın sərbəst güləş, ağır atletka, şahmat, armreslinq, poverliftinq və VMH çoxnövçülüyü üzrə yarışlar, cüdo üzrə zona və respublika turniri keçrilmişdir. Bundan əlavə respublika və beynəlxalq yarışlarda iştirak edən idmançılarımız uğurlu nəticələr əldə etmişlər.



Karate üzrə 2 qat Dünya çempionu İbad Rzazadə Ukraynanın Xarkov şəhərində keçirilən Kempokarate və Kobudo döyüş növləri üzrə Dünya çempionatında yenidən fərqlənərək 3-cü dəfə dünya çempionu adını qazanmışdır. Onun yetirməsi 14 yaşlı Rəvan Əkbərli isə yaşıdları arasında dünya ikincisi olmuşdur.

İran İslam Respublikasının Astara şəhərində keçirilmiş cüdo üzrə beynəlxalq turnirdə iştirak edən Fəqan Ağagülov II yeri tutaraq gümüş mükafat qazanmışdır.

Gənc karate ustaları Əkbərli Rəvan, Məmmədli Muhəmməd, Sabirov Rövşən, Abdullayev Əli, Məmmədli Süleyman, İsmayılov Cavidan və Babaşov Fərid Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Qocyu-ryu Okinava Karate-do, Kemporyu və Kobudo döyüş növləri üzrə XXI Respublika birinciliyində I yerə layiq görülmüşlər. Digər karateçilərimiz Məmmədli Nicat, Rəhimli Nüsrət, Baloğlanov Loğman və Qaybalızadə Xanəli isə öz çəki dərəcələrində II yeri tutmuşlar.




Ağır atletika üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatında İsmayıl Qurbanov II yeri, Vasif Səfərov isə III yer tutmuşdur. Onların komanda yoldaşları Mürşüdov Səlimxan, Cəfərov Sadətdin, Zahidov Nahid və Məmmədov Tehran yeniyetmələrin ölkə birinciliyində II yerə layiq görülmüşlər.

Cüdo idman növü üzrə 15 yaşadək yeniyetmələr arasında Azərbaycan birinciliyində Qobustan UGİM-nin yetirməsi Baba-rəhim Mirzəyev III yeri tutmuşdur.



Ümumilikdə, 2018-ci ilin I yarımilliyində idman sahəsi üzrə 10 çempionat, birincilik, turnir keçirilmiş və 1258 nəfər yeniyetmə və gənc bu yarışlarda iştirak etmişdir. Bundan əlavə rayon idmançılarının 4 beynəlxalq, 16 respublika, 14 zona yarışlarında iştirakı təmin olunmuşdur. Bu yarışlarda 379 nəfər idmançı iştirak etmiş, 53 qızıl, 29 gümüş və 49 bürünc olmaqla, 131 medal qazanılmışdır.

***Qobustan rayon Gənclər və İdman İdarəsinin rəisi Qadir Əkbərov***

# Cumhuriyyətin 100 illiyi







***Qobustan rayon ümumtəhsil məktəblərindən Sündü, Qobustan şəhər 2 saylı, Çuxanlı, Təklə, Nabur, Cəyirli kənd tam orta və Çalov, Təsi, Sədəf, Cəyirli, Şıxzərli, Sündü kənd ümumi orta məktəblərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilib. Rayonun Şikar Şikarov adına Sündü kənd tam orta məktəbində keçirilən tədbir digər məktəblərlə müqaisədə daha maraqlı olub.***

Tədbirdə Qobustan rayon Təhsil Şöbəsinin müdiri Füzuli Gülalıyev, rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Cahid Nəzərov, məktəbin müəllimləri, şagirdlər. valideyinlər və qonaqlar iştirak edib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlanıb.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Ziya Məlikov açıb. Sonra Rayon Təhsil Şöbəsinin müdiri Füzuli Gülalıyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar geniş nitq söyləyib. Bir əsrdə Azərbaycan xalqının iki dəfə müstəqillik qazandığını və ikinci dəfə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qazanılmış müstəqilliyimizin əbədi olacağını məktəblilərə və bütün tədbir iştirakçılarına çatdırıb. Sonra tədbir şagirdlər tərəfindən hazırlanmış şeirlər və kiçik kompozisiyalarla davam etdirilib.

Tədbirin sonunda Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Cahid Nəzərov Şikar Şikarov adına Sündü kənd tam orta məktəbinin pedaqoji heyyətinə və şagirdlərinə geniş və maraqlı tədbir hazırladıqları üçün öz təşəkkürünü bildirib.

***Qobustan Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Cahid Nəzərov***

## Rayon ərazisində yay dövründə havaların isti keçməsi ilə əlaqədar kənd təsərrüfatı heyvanları və ev quşları arasında qabaqlayıcı tədbirlərin yerinə yetirilməsi barədə

-Fermerlər (sahibkarlar) heyvanların günün isti vaxtında saat 11:00 -dan 17:00-dək gün vurmadan qorumaq üçün baytarlıq -sanitariya qaydalarına uyğun saxlanılması.

-İri və xırda buynuzlu heyvanları qan parazitar xəstəliklərdən qorumaq məqsədi ilə baytar həkimin nəzarəti altında vaxtlı -vaxtında çimizdirilməsi.

-İri buynuzlu damazlıq heyvanların sərinləşdirici vasitələrdən istifadə etməklə temperatur rejimini tənzimləməklə yaşıl yem kütləsi və təmiz su ilə təmin edilməsi.

-Əhaliyə məxsus heyvanlar və quşlar arasında proflaktik peyvəndləmələrin, aparılan baytarlıq tədbirlərinin epizodik plana müvafiq vaxtlı-vaxtında təlimata uyğun yerinə yetirilməsi.

-Yuxarıda göstərilən tədbirlərin səmərəli aparılması məqsədi ilə mariflənd irmə işləri həyata keçirilməsi sizə tapşırılır.

***Qobustan rayon Baytarlıq idarəsinin rəisi İntiqam Balakişiyev***

## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən2018-ci ilin iyul-sentyabr aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

## Q R A F İ K

| Sıra N-si | Vətəndaşların qəbulu kecirilən ərazi | Qəbulun kecirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nın Yekəxana kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.07.2018 15-00-18-00 | Rayon prokuroru Ramin Hüseynov |
| 2. | Qobustan rayonu İHB-nın Cəyirli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 30.08.2018 15-00-18-00 | Rayon prokuroru Ramin Hüseynov |
| 3. | Qobustan rayonu İHB-nın Təklə-Mirzəbaba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 28.09.2018 15-00-18-00 | Rayon prokuroru Ramin Hüseynov |

**Qeyd:** Kəndlərdə qəbulların kecirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nın kəndlər üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilməlidir.

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

# Hər zaman ehtiramla xatırlanan pedaqoq

***" Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq ".***

*Heydər Əliyev*

***Bu mənim görkəmli ziyalı, misilsiz pedaqoq, el ağsaqqalı , xatirələrdə silinməz iz qoyan, hələ bundan sonra da uzun zaman böyük ehtiramla xatırlanacaq Azərbaycan Respublikanın Əməkdar müəllimi Davud Orucov haqqında ikinci məqaləmdir.***

Payızın son ayıdır.Bayırda yağış yağır. Pəncərənin qabağında dayanıb şüşəyə qonan damcıların birləşərək giləlnməsini və sonra aşağı süzülərək cığırlar kimi şırımlanmasını, yox olmasını seyr edirəm. Bu tamaşa insan qəlbində həzin bir duyğu yaradır. Bu şırımlar, bu cığırlar insanın fikrini ötən günlərə ,indi şirin bir xatirəyə dönmüş uşaqlıq və gənclik illərinə qaytarır. O illərin gözəlliyi, özəlliyi təkcə onda deyildi ki, biz gənc idik, arzularımızın çiçəkləndiyi, sevincimizin aşıb- daşdığı günləri doya-doya yaşayırdıq. O illər bizə həm də ona görə əzizdi ki, biz onda bütün hərəkətlərinə heyranlıqla baxdığımız, ilahi bir sevgi ilə ucalığına həsəd apardığımız, istər orta məktəbdə, istərsə də sonrakı həyatımızda dərs aldığımız insanların himayəsi altında idik. Sevincimizə şərik olan, dar ayaqda dayağımız olan,müəllimlərimiz haqqında danışanda mən yenə də ilk əvvəl onu xatırlayıram. Onun barəsində nə qədər danışsam, yenə sözüm olacaq.



Davud müəllim uzun illər mənim təhsil aldığım Nərimankənd kənd orta məktəbinin (İndiki Qobustan şəhər 03 saylı tam orta ) direktoru olmuşdur .Bu məktəb məhz həmin illərdə keçmiş Sovetlər ittifaqında öz nailiyyətləri ilə tanınan məktəblərin ön cərgəsində dayanırdı. Onun şanlı keçmişi ilə bağlı bütün söhbətlərin başında Davud müəllim dayanır. Bu şöhrəti məktəbə qazandıran direktor haqqında indi dillərdə rəvayətə donən o qədər söz var ki. Onun məktəbə rəhbərlik etdiyi illərdə "Şirvanın Akademiyası " titulunu qazanmış Nərimankənd məktəbinin həmin dövrlərdəki uğurları, direktor Davud Orucovun misilsiz fəaliyyəti əslində başqa bir məqalənin mövzusudur. Qismət olarsa, bu barədə daha sonra yazarıq. Bu yazıda isə onu bir müəllim kimi təqdim etməf fikrindəyəm. Təkcə onu demək istəyirəm ki, o illərdə məktəb şagirdlərinin uğurlarının sorağı Sovetlər İttifaqının hər yerindən,eləcə də paytaxt Moskvadan gəlirdi.

Mən onuncu sinifdə oxuyanda Davud müəllimin 55 yaşı vardı. İndi mən özüm o yaşdayam. Bu ömür çərçivəsində nə qədər insanların haqqın rəhmətinə qovuşmasına şahid oldum sayını söyləyə bilmərəm. Yuxarıda yağışın məni duyğulandırmasında nahaq söz açmadım. İnsan ömrü də bu yağışın damcılarına bənzər. Var ikən yox olur. Zeynal Cabbarzadənin şeirindəki kimi "Kimlər gəldi, kimlər getdi bu dünyadan?" Gəlibgetmək yaradanın əmridir, amma necə yaşamaq insanın öz əlindədir. Allahın bəxş etdiyi ömür çərcivəsində elə yaşamalısan ki, səndən sonra da sözün söhbətin dillərdə dolaşsın.Belə bir ifadə var. İnsanın ölümü o zaman gerçəkləşir ki, onu xatırlamırlar. Xoş o kəslərin halına ki, hər zaman yaxşı əməlləri ilə xatırlanır.

Ölum haqqında danışanda əsrlərin sınağından çıxmış bir bayatı yada düşür.

***Su gələr axar gedər,***
***Şimşəklər çaxar gedər.***
***Dünya bir pəncərədi,***
***Hər gələn baxar gedər.***

Orta məktəbdə oxuyanda rəhmətlik Davud müəllimin dilindən eşitdiyim çox misraları bu gün də bir şagird yaddaşının məhsulu kimi unutmamışam. Amma bu yazını yazmağa başlayanda böyük şairimiz Məmməd Rahimdən söylədiyi misralar səsləndi yenə qulaqlarımda:

***Mən ağ sular kimi axıb getmərəm.***
***Şimşəyəm, göylərdə çaxıb getmərəm.***
***Dünyanı pəncərə sanıb babalar,***
***Mən ordan mənasız baxıb getmərəm.***

Yenə gözümdə həmin misraları sevə-sevə söyləyən Davud müəllimin məğrur, vüqarlı siması canlandı.Sanki o ,bu sözləri özü haqqında söyləyirdi.

Uşaqlığımdan mənə qalan həzin xatirələrin içərisində Davud müəllimin qayğıkeşliyi ona görə əzizdir ki , uşağın yaddaşında saclarını tumarlayan bir əlin hərarəti, xoş təbəssümlə deyilən bir sözün təsiri uzun illər boyu hakim olur. Məktəbin radio qovşağı hər gün böyük tənəffüsdə 10 dəqiqəlik veriliş təqdim edirdi. Bir dəfə ((onda biz beşinci sinifdə oxuyurduq) radioda çıxış etməli idik. Böyük Vətən müharibəsində qələbənin 75 illik yubleyinə həsr edilmiş şeirlər söyləyəcəkdik. Hamımız həyəcanlı idik. Həyatımızda ilk dəfə bizə belə məsuliyyətli iş tapşırmışdılar. Davud müəllim bizə yaxınlaşıb :"Bu sizin ilk uğurunuz olacaq,- dedi,- hələ daha mötəbər yerlərdə mikrafon qarşısında çıxış edəcəksiniz, unutmayın ki, ilk addımdan çox şey aslıdır.Görüm sizi." O gün biz radioda müvəffəqiyyətlə çıxış etdik. Həmin vaxt dediyim şeirin misraları hələ də yadımdadı:

***Dağ kəndi yaşıl meşə, Hamı sükut içində,***
***Gözlər yaşlı kədərli, duyğular aşıb-daşır....***

Bir məktəblinin həyatından olan bu epizod, bu xatirə ona görə yadımdan çıxmır ki, uşaq dünyasına yaxından bələd olan məktəb direktorunun , necə deyərlər, dağ boyda bir kişinin bu hərəkəti, diqqəti, kiçik yaşlı məktəblilərə qayğısı onun böyük insanpərvərliyinin ən kiçik gösrəricisi idi. Dahi rus yazzgsg L.N.Tolstoy " Öz işini sevən müəllim yaxşı müəllim, bununla yanaşı uşaqları və fənnini sevən müəllimi əla müəllim " adlandırırdı. Davud müəllim əla müəllim idi.

O, peşəsinin vurğunu idi. Bu peşə onun üçün "həyatının mənası, yaşam anlamı idi " desəm yanılmaram. Müəllimlik haqqında danışanda belə deyirdi: " Bütün sənətlərin öz gözəlliyi var,amma müəllim hər zaman onların hamısından ucada dayanıb .Doğma bala bildiyin şagirdlərin həkim, musiqiçi, mühəndis, bənna, dülgər, sürücü, hüquqşünas da olacaq. Sən isə hər zaman onlarin hamısının müəllimi olaraq qalacaqsan, hamısının müvəffəqiyyətində sənin əməyin olacaq. Bundan şərəfli nə ola bilər ki?"



Davud müəllim bizə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edirdi. Hər şeydən əvvəl tədris etdiyi fənlərə olan böyük sevgisini bizə də aşılamaq üçün o can yanğısı ilə çalışırdı. Hər kəlməsi, hər sözü ilə dilimizə, ədəbiyyatımıza olan vurğunluğunu ifadə edən müəllimimiz mənəvi dəyərlərimizə verdiyi yüksək qiyməti bizə göstərərək bizdə xalqımızın varlığına , dilinə, tarixinə, sazsöz dünyasına, mədəniyyətinə məhəbbət aşılayırdı. Azərbaycan dilinin cazibədarlığı, saflığı, dünyanın ən poetik dillərindən biri olması, min illərdən bəri bu dildə yaranan gözəl əsərlərdən bizə danışdıqca tükənməyən sözü , söhbəti ondan bizə qalan xatirələr içərisində daha çox yada düşür. Dilimizin qrammatikası ilə bağlı öyrətdikləri bu gün ali təhsil almamış şagirdlərinin belə yaddaşında qalmaqdadır. Bir dəfə qonşumuz olan 63 yaşlı bir qadının dilindən eşitdiyim sözlər məni təəccübləndirmişdi. O nəvəsinin tapşırıqlarına baxaraq səhv etdiyini söylədi və cümlənin sintaktik təhlilinin düzgün variantını ona başa saldı. Sonra isə bu sözləri söylədi:"Allah Davud müəllimə rəhmət eləsin. Öyrətdikləri hələ də yadımdadı." Bu Davud Orucovun müəllimlik möcüzəsi idi. O zaman mənim ürəyimdən keçdi ki, kaş mənim də dediklərim 40-50 ildən sonra belə xatırlana.



Ədəbiyyat fənnini həyat dərsi adlandırırlar. Davud müəllim bizim həyat dərsimizin maraqlı keşməsini təmin etməklə bərabər, həm də bizə , həqiqətən , həyat dərsi keçərdi. Ədəbi qəhrəmanlarımızın obrazları bizim gələcək arzularımızı müəyyənləşdirirdi. Müəllim bizim hər birimizdə bu surətlərin cizgilərini gördüyünü söyləyəndə özümüzə inamız artar, yerə-göyə sığmazdıq.Onun hər sözü , hər kəlməsi bizim üçün öyüd -nəsihət idi. Xüsusən həyat haqqındakı söylədikləri heç yadımdan çıxmır. Hər şeydə bir gözəllik axtarırdı.Həyatda gözəl yaşamağın yolu haqqında danışanda deyərdi "Həyatı gözəlləşdirmək insanın öz əlindədir.Hər insan öz niyyətinə görə görür ətrafda baş verənləri. Əgər sən özün yaxşı adamsansa , onda rastlaşdığın hadisələrdə mütləq yaxşı nə varsa onunla maraqlanırsan,ona meyl edirsən, yox illah bir catışmazlıq, naqislik axtaracaqsansa, onda özündə bir qüsur var. .." Bu barədə danışanda həmişə sözünün ölməz Hüseyn Cavidin bu məşhur misralarla bitirərdi:

***Hər qulun cahanda bir pənahı var,***
***Hər əhli-halın bir qibləgahı var,***
***Hər kəsin bir eşqi bir ilahi var***
***Mənim tanrım gözəllikdir, sevgidir.***

Gözümdə hər zaman məğrur, vüqarlı ,bir də çox səbirli bir insam idi.Sakit aram səslə danışardı. Səsində sanki bir həzinlik vardı. Hər bir şagirdinə həssaslıqla yanaşar, təkcə təhsili ilə deyil bütün problemləri, xüsusən də ailə vəziyyətləri, sosial şəraitləri ilə maraqlanardı. O zamanlar dolanışığı ağır olan ailələrin uşaqlarına məktəbdən yardım verilirdi. Davud müəllim bu prosesi elə həyata keçirirdi ki, yardıma alan uşaqlar yoldaşlarının arasına "əzilmirdi." Uşaqlara verilən paltarları çox vaxt mağazadan onların yaxınları, valideynləri götürürdü. Sinifdə isə bu yardım məsələsindən demək olar ki, heç kimin xəbəri olmurdu.

İlk baxışda zəhimli görünən Davud müəllimin əslində çox incə bir qəlbi vardı. Hər zaman əzilənin tərəfində olar, maddi mənəvi köməyini əsirgəməzdi.

Orta məktəbi bitirəndən sonra onunla tez-tez görüşürdüm. İşə girmək istəyəndə də mənə yol göstərən o olmuşdu. Məktəbi qurtaran il ali məktəbə daxil ola bilməmişdim. O zamanların sərt qayda qanunları var idi. İkinci il ali məktəbə sənəd verən gəncin mütləq iş stajı olmalı idi. Davud müəllim mənim Kolxoz idarəsində işlə təmin olunmağım üçün rayon mərkəzində tanıdığı rəhbər işçilərə dəfələrlə müraciət etdi. Mən işləyə- işləyə ali təhsil aldım. Həyatda öz işim , öz mövqeyim oldu. Buna görə də hər zaman ona minnətdar idim. 1985-ci ildə kadrlar şöbəsində işlədiyim sovxozda Komsomol komitəsinin katibi yeri boşalanda mən də özümü o yerdə görmək istəyirdim.Seçilə bilmək üçün sərt qaydalar var idi. Davud müəllimin bir sözü ilə məni seçdilər. Özümün də xəbərim olmadan mənə kömək etmişdi. Bir müddət keçəndən sonra sovxoz direkroru bunu mənə söyləyəndə onun bu diqqətinə, qayğısına minnətdar oldum.

Mənimlə olan söhbətlərinin hər birini insanlıq fəlsəfəsinə həsr edilən bir dərs kimi qiymətləndidirdim Növbəti "dərsin" gəlməsuni səbirsiziklə gözləyirdim. Onun söhbətləri insanı özünə yenidən baxmağa,həyata sevgi ilə sarılmağa səsləyirdi. Onu dinləməyə həmişə ehtiyacım var idi.

Davud müəllimin direktor olduğu illərdə məktəbimizdə respublikamızın tanınmış ziyalıları, Yazıçı və şairləri ilə görüçlər keirilirdi. O görüşlər bu gün çoxlarının dilində şirin xatirələrin sözü söhbəti kimi çözələnməkdədir. Mən tələbə olanda xalq şairi Bəxtiyar Vahabzadə bizə Sovet ədəbiyyatından dərs deyirdi. Haradan olduğumu biləndən sonra ilk soruşduğu şəxs Davud müəllim oldu.Onun təhsil fədaisi olmasından, qonaqpərvərliyindən danışdıqca auditoriyadakı tələbə yoldaşlarım arasında duyduğum fəxr hissi həm də qarşımıza bir məsuliyyət qoyurdu. Bizi ona görə tanıyacaqlarsa, yaxşı tanınaq.

Deyirlər insanın ən ümdə keyfiyyətinin dəyəri onun ailəsi ,tərbiyə verdiyi ovladləri ilə ölçülür. Davud müəllim bacarıqlı bir rəhbər. gözəl ziyalı, əvəzsiz müəllim olmaqla yanaşı, mükəmməl bir ailə başçısı idi. Ovladlrının hər biri ona başucalığı gətirmişdi. Sağlığında , ömrünün müdrik çağlarını yaşayanda çoxları onu "bəxtəvər ata " adlandırırdı. Bir də belə deyirlər, " Xoşbəxt o kəsdir ki, işdən evə, evdən işə tələsir." Davud müəllimin də ömrü belə keçmişdi. O zamanlar mən də ona qibtə ilə baxar və onu balalarına uçmaq öyrədən qoca qartalla müqayisə edərdim. Belə söyləyirlər ki, qartal öz balalarına uçmaq öyrədərkən onları caynağına alıb uca bir qayanın zirvəsinə qaldırır. Sonra onları pərvazlandıraraq göyə uçurur. Özü isə zirvədə dayanıb onların uçuşunu seyr edir. Balalarının uçuşunu gördükcə sinəsi fəxrlə qabarır, görənlər dayandığı zirvənin ona nə qədər yaraşdığını bir daha dərindən dərk edirlər.

Onun bütün övladları təhsil işçiləridir. İki oğlu professor, bir oğlu Təhsil Nazirliyində məsul vəzifədə çalışır, qızları müəllimdir. Onların hər biri cəmiyyətimizin dəyərli insanları kimi atalarının yolunu şərəflə davam etdirir .

Davud müəllim bir ömür yaşadı, sağlığında olduğu kimi ölümündən sonra da zirvədə oldu. Öz ucalığı ilə yaddaşlarda əbədiləşdi. 2017 ci ildə anadan olmasının 95 illik yubleyi keçiriləcək bu nəcib insanı yaxından tanıyanlar, onun haqqında öz xatirələrini danışanlar dayandığı zirvənin ucalığından hələ çox bəhs edəcəklər. Bu isə mənim xatirələrimdir. Deyə bildiklərimin bir zərrəsini bu məqalədə söyləyə bildimsə xoş halıma. Onun haqqında söylənənlər üçün bir məqalə olduqca yetərsizdir.

***Qobustan şəhər 03 saylı məktəbin müəllimi, Əməkdar müəllim***
***Sədaqət Məhərrəmova***

# 2018-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

## Y A D D A Ş

Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən 2018-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr iyul ayının 16-dan gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

2018-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları

✦ Əlavə dəyər vergisi bəyannaməsini,
✦ Aksiz bəyannaməsini,
✦ Yol vergisi bəyannaməsini,
✦ Mədən vergisi bəyannaməsini,
✦ Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və
✦ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

✦ Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

2018-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduqları

✦ Sadələşdirilmiş verginin bəyannaməsini və
✦ Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini
cari ilin iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

✦ Cari ilin 2-ci rübü üzrə Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)
cari ilin iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və iyun ayı üzrə hesablanmış vergini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.
(ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər).

✦ Xüsusi notariusların gəlir vergisi bəyannaməsi
cari ilin iyul ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

✦ Dövlət rüsumu haqqında hesabat
cari ilin iyul ayının 20-dək vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

***

Gəlir və mənfəət vergisi üzrə cari vergi ödəmələrinin son müddəti qeyr-iş günü ilə əlaqədar iyul ayının 15-dən 16-na keçirilmişdir.

***

(2018-ci ilin iyun ayının 24-ü tarixində efirə gedəcək "İqtisadi Zona" verilişi üçün elan - Vergi Təqvimi)

**Vergi ödəyicilərinin nəzərinə!**

Gəlir və mənfəət vergisi üzrə cari ödəmələrin son müddəti 16.07.2018-ci ildir.

ƏDV, Aksiz, Yol və Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 20.07.2018-ci ildir.

Sadələşdirilmiş vergibəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2018-ci ildir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsinin son müddəti 20.07.2018-ci ildir.

ƏDV-nin ödəyicisi olmayan Gəlir və və Mənfəət vergisinin ödəyicilərinin Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan rüblük vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2018-ci ildir.

Ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2018-ci ildir.

Xüsusi notariusların gəlir vergisi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.07.2018-ci ildir.

Dövlət rüsumunun tutulması barədə hesabatın təqdim edilməsinin son müddəti 20.07.2018-ci ildir.

***

(2018-ci ilin iyun ayının 24-ü tarixində efirə gedəcək "İqtisadi Zona" verilişi üçün elan - Vergi Təqvimi)

### Elan

**Vergi ödəyicilərinin nəzərinə!**

20.07.2018-ci iltarixi aşağıdakı vergi bəyannamələrinintəqdim edilməsinin son günüdür:
✦ Əlavə dəyər vergisinin bəyannaməsi
✦ Xüsusi notariusların Gəlir vergisi bəyannaməsi
✦ Sadələşdirilmiş verginin (o cümlədən daşınmaz əmlakın təqdim edilməsi və pul vəsaitlərinin nağd çıxarılması üzrə) bəyannaməsi
✦ Aksiz bəyannaməsi
✦ Yol vergisi bəyannaməsi
✦ Mədən vergisi bəyannaməsi
✦ Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) bəyannaməsi
✦ Ödəmə mənbəyində (o cümlədən uduş və mükafatlardan) tutulan vergi bəyannaməsi
✦ Dövlət rüsumunun tutulması barədə hesabat.

# 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

## Y A D D A Ş

2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları

✦ Əlavə dəyər vergisi bəyannaməsini,
✦ Aksiz bəyannaməsini,
✦ Yol vergisi bəyannaməsini,
✦ Mədən vergisi bəyannaməsini,
✦ Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və
✦ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

✦ Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməldir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

✦ Muzdlu işlə əlaqədar 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

✦ Xüsusi notariusların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi cari ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

***4 saylı Ərazi Vergilər İdarəsi***

### İtmişdir

Maqsudov Maqsud Mərvan oğluna məxsus dövlət aktı (JN-291 Kod30700038) itmişdir

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Ekspress Servis" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru